# Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 20 illiyi






**18-19 iyun tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 20 illiyinə həsr olunmuş "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" adlı beynəlxalq konfrans və Türk Dövlətləri Təşkilatına üzv ölkələrin məhkəmə şuralarının 3-cü iclası keçirilir.**

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək məzarı önünə gül dəstələri qoyublar. Həmçinin, akademik Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçəklər düzülüb. Şəhidlər xiyabanında ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsi yad edilib.

Sonra Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 20 illiyinə həsr olunan "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" mövzusunda beynəlxalq konfrans çərçivəsində ilk olaraq dövlət himni səsləndirilib, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbirdə Məhkəmə-Hüquq Şurasının fəaliyyəti ilə bağlı qısametrajlı sənədli film nümayiş etdirilib.




Ali Məhkəmənin sədri İnam Kərimov beynəlxalq konfransda çıxışı zamanı bildirib ki, bu gün biz hüquq sistemində mühüm yerə malik olan məhkəmə-hüquq təşkilatının 20 illik yubileyini qeyd edirik: "Əlbəttə ki, bu uğurların təməlində müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyev amili dayanır. Onun zəngin siyasi təcrübəsi, vətənə tükənməz sevgisi və uzaqgörənliyi xalqımızı ağır sınaqlardan uğurla çıxarmış, gələcək inkişafın əsasını qoymuşdur. Əminliklə deyə bilərik ki, dahi lider hər sahədə tənəzzül yaşayan Azərbaycandan - müasir, müstəqil və qüdrətli yeni Azərbaycan yaratmışdır. Təbii ki, bütün sahələrdə yenilənən Azərbaycanda yeni məhkəmə sisteminin qurulması zəruri idi. Məhz buna görə də demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş ölkəmizdə müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına xüsusi diqqət yetirilmişdir. Görülən işlər sayəsində mütərəqqi qanunlar qəbul olunmuş, hüquqi dövlətin möhkəm əsası qoyulmuşdur. 1995-ci ilin 12 noyabr tarixində qəbul edilən ilk milli Konstitusiyamızda məhkəmə hakimiyyətinin əsasları formalaşdırılmış, məhkəmələrin digər hakimiyyət qollarından müstəqilliyi təsbit edilmişdir. Sonrakı illərdə Hüquqi İslahatlar Komissiyası yaradılmış, məhkəmə hakimiyyətinin rolu nəzərə alınmaqla Azərbaycan Respublikasının Prezidenti yanında Məhkəmə-Hüquq Şurası təsis edilmişdir. "Məhkəmələr və hakimlər haqqında" Qanunda isə məhkəmə sisteminin müstəqilliyinin əsas prinsipləri müəyyən edilərək, üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır".

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov qeyd edib ki, bu gün məhkəmələrimizin yükü daha çoxdur: "Azərbaycanda bu il "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunur. Ötən 30 ilə - yeni Konstitusiyamızın keçdiyi yola nəzər salsaq, insan hüquq və azadlıqlarının dövlət siyasətinin daim mərkəzində dayandığını aydın şəkildə görmək mümkündür. Ümumilikdə məhkəmə-hüquq fəaliyyətlərinin təşkili birbaşa Konstitusiyamızdan asılıdır. Bütün bunlar məhkəmə sisteminin əlçatan olması və bu sistemdən xalqın razı qalmasını əsas hədəfə çevirib. Heç kəsə sirr deyil ki, bu gün məhkəmələrimizin iş yükü əvvəlki illərlə müqayisədə daha da artıb. Məhz bu baxımdan hakimlərin sayının 800-ə çatdırılması planı olduqca əlamətdardır".

Gürcüstan Ali Məhkəməsinin sədri Nino Kadagidze də çıxışında diqqətə çatdırıb ki, məhkəmə şuraları məhkəmə sisteminin idarəedilməsinə cavabdeh olan müstəqil orqan kimi mühüm rol oynayır. Bu şuraların vəzifəsi yalnız təyinatlara, karyera yüksəlişlərinə və digər məsələlərə nəzarət etmək deyil, həm də məhkəmə sistemini kənar təsirlərdən qorumaqdır.

Beynəlxalq konfransda sabiq ədliyyə naziri, hazırda Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədov Məhkəmə-Hüquq Şurasının 20 illik yubiley medalı ilə təltif edilib. Medalı Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov təqdim edib. Fikrət Məmmədov təltiflə bağlı dövlət başçısı İlham Əliyevə təşəkkür edib.

Qeyd edək ki, "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" adlı beynəlxalq konfrans çərçivəsində iki panel sessiyası keçirilib. İlk olaraq, "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar və həlli yolları" adlı paneldə çıxış edən Ali Məhkəmənin sədr müavini və Məhkəmə-Hüquq Şurasının üzvü Çingiz Əsgərov bildirib ki, Azərbaycanda hakimlərin sayı azdır, onların sayı 3 dəfə artırılmalıdır: "100 min adama düşən hakim sayı 13 faizə yaxındır. Dünya göstəriciləri statistikasına əsasən, Azərbaycan axırıncı yerdədir. Dünya praktikasında Azərbaycan kimi ölkələrdə hər 100 min nəfərə düşən hakim sayı 17-18 faizdir. Ona görə bizdə hakimlərin sayı 3 dəfə artırılmalıdır. Məhkəmə-Hüquq Şurasında müxtəlif variantlar nəzərdən keçirilir". Çingiz Əsgərov əlavə edib ki, qəbul edilmiş qaydalara əsasən, hakimlərin seçilməsi prosesi xeyli sadələşib: "Əvvəllər hakimin seçilməsi prosesi 6 imtahandan ibarət olub. Bir hakimin seçilməsi və təyin edilməsi 2 il davam edib". Məhkəmə-Hüquq Şurasının üzvü onu da qeyd edib ki, yeni təyin edilmiş hakimlərin əksəriyyəti 35 yaşa qədər olan şəxslərdir. Təkcə son üç ildə 1600-dən çox namizəd seçim prosesində iştirak edib, onlardan 210-u seçilərək yüksək hakim vəzifəsinə təyin edilib: "Yeni təyin edilmiş hakimlərin təxminən 50 faizini qadınlar təşkil edir. Yeri gəlmişkən, bu rəqəm əvvəlki illərdə xeyli aşağı - 15 faiz idi. Son illərin təyinatları nəticəsində qadınların sayı bütün hakimlərin 30 faizədək yüksəlib. Bu, ölkəmizin məhkəmə sistemində gender bərabərliyinin təmin olunmasının, qadınların ictimai həyatın müxtəlif sahələrində olduğu kimi, məhkəmə sistemində də fəallığının təzahürü kimi qiymətləndirilə bilər".




Qeyd edək ki, birinci panel müzakirədə moderator qismində Ali Məhkəmənin Mülki kollegiyasının sədri Sənan Hacıyev, iştirakçılar qismində isə Türkiyə Cümhuriyyəti Hakimlər və Prokurorlar Şurasının sədr vəzifələrini icra edən Füzuli Aydoğdu, həmçinin Sloveniyanın Məhkəmə Şurasının sədri Urska Kezmah, Qırğız Respublikasının Hakimlər Şurasının sədri Aida Seidakmatova, Şimali Kipr Türk Cümhuriyyətinin Ali Məhkəməsinin sədri Bertan Özərdağ çıxış ediblər.

Beynəlxalq konfransın ikinci panel sessiyası çərçivəsində isə "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar və həlli yolları" mövzusu müzakirə olunub. Daha sonra beynəlxalq konfrans ikitərəfli görüşlərlə davam etdirilib.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika.- 2025.- 19 iyun (№ 124).- S.5.